# Görkəmli alimin xatirəsi anıldı





**2018-ci il noyabrın 1-də AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli mifoloq, Əməkdar elm xadimi, alim, filologiya elmləri doktoru, professor Mirəli Seyidovun anadan olmasının 100 illiyi münasibətilə elmi sessiya keçirilmişdir. Sessiyanı giriş sözü ilə Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, professor Əlizadə Əsgərli açdı. O bildirdi ki, tədbir iştirakçıları həmin gün Fəxri Xiyabanda alimin məzarını ziyarət etmiş, burada Ədəbiyyat İnstitutunun direktoru İsa Həbibbəyli M.Seyidovun yaradıcılığının, elmi fəaliyyətinin bəzi məqamlarından söhbət açmışdır.**

Sessiyanın əsas məruzəçisi Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı ədəbiyyatşünas alimin həyat və yaradıcılığı ilə bağlı ətraflı çıxış etdi. O qeyd etdi ki, M.Seyidovun yaradıcılığı çoxşaxəlidir. Belə ki, o, həm folklor, klassik ədəbiyyata, ədəbi əlaqələrə, həm də mifologiyaya aid əsərlər yazmışdır. Məruzəçi onu da bildirdi ki, M.Seyidovun bu günlərdə “Azərbaycan xalqının soykökünü düşünərkən” kitabı akademik İ.Həbibbəylinin ön sözü və onun redaktorluğu ilə latın qrafikasıyla yenidən çap olunmuşdur. Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov alimin türkoloji və klassik ədəbiyyata olan baxışlarına öz münasibətini bildirdi. Professor Qəzənfər Paşayev M.Seyidovun Azərbaycan elmi qarşısındakı xidmətlərini diqqətə çatdırdı.

Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru Aida Feyzullayeva M.Seyidovla vaxtilə bir şöbədə işlədiyini söyləyib, alimin yaradıcılığına müxtəlif istiqamətdən münasibətini bildirdi.

Ədəbiyyat İnstitutunun şöbə müdiri Pərvanə İsmayılova alimin Azərbaycan mifologiyası sahəsindəki xidmətlərini qabarıq şəkildə təqdim etdi.

ADU-nun kafedra müdiri, prof. Əsgər Zeynalov M.Seyidovun prof. T.Əhmədovla bərabər elmi rəhbəri olduğunu nəzərə çatdırdıqdan sonra, onun elmdə və həyatda bir sıra cəsarətli addımlarını ciddi faktlarla sessiya iştirakçılarının diqqətinə çatdırdı.

Tibb elmləri doktoru, prof. Paşa Qəlbinur alimlə bağlı xatirələrindən söhbət açdı.

Ədəbiyyat İnstitutunun şöbə müdiri, prof. Məmməd Məmmədov M.Seyidovun yaradıcılığında aşıq mövzusundan bəhs edib, bəzi müqayisələr apardı.




Folklor İnstitutunun əməkdaşı Elxan Məmmədov və AMEA-nın Dilçilik İnstitutunun əməkdaşı İlhami Cəfərli M.Seyidovun gənclərə, şəxsən onlara göstərdiyi qayğıdan danışdılar.

Sessiyanın sonunda alimin oğlu, siyasi elmlər üzrə fəlsəfə doktoru Elçin Seyidov çıxış edərək atasının xatirəsini yad etdikləri üçün tədbir iştirakçılarına öz minnətdarlığını bildirdi.

**Əsgər ZEYNALOV,**
**filologiya elmləri doktoru, professor.**